www.yeniazerbaycan.com
15 sentyabr 2016-cı il, cümə axşamı / № 167 (4810)
YENİ AZƏRBA

# Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyəti Qubada olub





Ümumdünya Yəhudi Konqresinin (ÜYK) prezidenti Ronald Lauderin başçılıq etdiyi nümayəndə heyəti Quba rayonundakı Qırmızı Qəsəbədə olub. Nümayəndə heyətinə ÜYK baş icraçı direktoru Robert Zinger, Konqresin vitse-prezidenti Qod Nisanov, Avrasiya Yəhudi Konqresinin prezidenti Yulius Maynl, Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner, Rusiya Yəhudi Konqresinin vitse-prezidenti German Zaxaryayev və Ümumdünya Yəhudi Konqresinin baş icraçı direktorunun diplomatiya üzrə müavini Maram Stern daxil idi.

AZƏRTAC xəbər verir ki, Qırmızı Qəsəbəyə səfər zamanı nümayəndə heyətini Milli Məclisin deputatı Yevda Abramov, Quba rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi Məhsəti Əliyeva, Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev və digər rəsmi şəxslər müşayiət ediblər.

Səfərin əvvəlində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyulub.

Əslən Qırmızı Qəsəbədən olan Qod Nisanov və German Zaxaryayev Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyətinə Qırmızı Qəsəbənin tarixi, Azərbaycan və yəhudi xalqları arasında dostluq və qardaşlığa əsaslanan qarşılıqlı münasibətlər, respublika rəhbərliyinin və Azərbaycan xalqının yəhudi icmasına hörmətli və səmimi münasibəti barədə məlumat veriblər.

Rusiya Yəhudi Konqresinin vitse-prezidenti German Zaxaryayev deyib: **"Qırmızı Qəsəbə bütün dünyada dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə xüsusi məkan, sözün həqiqi mənasında Azərbaycanın fəxridir. Burada yəhudilər və azərbaycanlılar əsrlər boyu doğma qardaşlar kimi yaşayır, onları ortaq tale və ortaq tarix bağlayır. Danılmaz tarixi faktdır ki, Azərbaycanda heç vaxt antisemitizm olmayıb və biz, əslən Azərbaycandan olanlar, bu fakta görə fəxr edirik. Azərbaycan sivilizasiyalararası və dinlərarası dialoqun nümunəsidir".**

Sonra Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyəti Qırmızı Qəsəbədəki sinaqoqa gedib, orada qəsəbə ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

ÜYK prezidenti Ronald Lauder Azərbaycan və yəhudi xalqları arasında tarixi əlaqələrə və Azərbaycanda yəhudilər üçün yaradılmış şəraitə görə minnətdarlığını və bundan ruh yüksəkliyi duyduğunu bildirib. Lauder deyib: **"Azərbaycanda yaşayan yəhudi icmasına səmimi münasibəti çox yüksək qiymətləndirirəm. Azərbaycan həqiqətən bütün dünya birliyi üçün tolerantlıq nümunəsidir".**

Sonra Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyəti 1918-ci ildə Azərbaycan torpağında erməni silahlı dəstələri tərəfindən törədilmiş soyqırımının qurbanları olmuş on minlərlə azərbaycanlının, üç min yəhudinin, min ləzginin və digər xalqların nümayəndələrinin xatirəsinə ucaldılmış Quba Soyqırımı Memorial Kompleksində olub. Burada nümayəndə heyətinə ətraflı məlumat verilib ki, bu qırğın Azərbaycan tarixinə XX əsrin ən faciəli soyqırımlarından biri kimi daxil olub.

Ümumdünya Yəhudi Konqresi nümayəndə heyətinin üzvləri Quba Soyqırımı Memorial Kompleksində eşitdiklərindən və gördüklərindən sarsıldıqlarını bildiriblər.